*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 27 iyul 2019-cu il № 58 (2375) Qiymət 30 qəpik


*Ön xətdən reportaj*

# "O torpaqlarımızı da işğaldan azad edəcəyik!"



*Hər dəfə ön xətdə olanda, düşmən tapdağı altında inləyən torpaqları, uçub dağılmış evləri görəndə, Xocalı, Qaradağlı, Ağdaban faciələrini xatırlayanda, zorakılığa məruz qalmış ana və bacılarımızı, tarixi abidələrimizi, milli mənəvi dəyərlərimizi, milli genofondumuzu yadıma salanda qisas hissi məni rahat buraxmır. Fikirləşirəm ki, mən narahat olduğum kimi yurd-yuvalarımız da, şəhidlərimizin ruhu da narahatdır.*

Bu fikirlərlə ön xəttə, həmişə düşüncələrini düşüncələrim bildiyim əsgərlərimizin yanına yollanıram. Yolboyu çətin keçilən cığırla avtomobil irəlilədikcə düşüncələrim bir az da şaxələnir. Az sonra bu istəyi hər gün ürəyində daha da böyüdən Vətən oğullarının döyüş postunda olacam. Görəsən onlar bu haqda nə düşünür?

Döyüş postundayıq. Torpağa ayaq basdığım an gözlərim uzanan səngərlərə sataşır. Düşünürəm: neçə-neçə igidlərin, qəhrəmanların ayaq izi, şəhidlərimizin qanı var bu səngərlərdə. Şəhid qanı düşən torpaq Vətənləşir...". Bu səngərlər torpağın Vətən olduğu, əmin-amanlığımıza, dincliyimizə, firavan həyatımıza aparacaq yolun başlanğıcıdı. Bura igid əsgərlərin gecə-gündüz keşik çəkdiyi, düşmənə sinə gərdiyi keçilməz qala, alınmaz Vətən torpağıdı.

Səngərdə əsgərlərimizin yanındayıq. Hər birinin üzündən məğrurluğu sezməmək mümkün deyil. İlk həmsöhbətim gizir Kənan Quliyev əsgərlərinin hər biri ilə qürur duyduğunu və onlarla hər an döyüşə hazır olduğunu deyir.

Müddətli hərbi xidmətini başa vurduqdan sonra ordu sıralarından tərxis olunsa da, çox keçmədən Mübariz İbrahimovun qəhrəmanlığı həyatını yenidən ordu sıraları ilə birləşdirib.

**(Ardı 3-cü səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Müdafiə naziri cəbhəboyu zonada yeni hərbi obyektin açılışında iştirak edib

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti hərbi hissələri yoxlamaq məqsədilə cəbhəboyu zonada səfərdədir.*





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə nazirliyin rəhbər heyəti Aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək önünə gül dəstələri qoyub, ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərin xatirəsini hörmət və ehtiramla yad ediblər.

Müdafiə naziri bölmələrdən birinin şəxsi heyəti üçün inşa edilən yeni yaşayış kompleksinin açılışında iştirak edib. Nazirə məruzə olunub ki, yaşayış kompleksi qaz, su, işıq və lazımi kommunikasiya xətləri, həmçinin yeni mebel dəstləri ilə təchiz edilib.

Müdafiə Nazirliyinin rəhbərliyi hərbi hissənin ərazisində yerləşən əsgər yataqxanası, tibb məntəqəsi, döyüş texnikası üçün saxlanc, avtopark, silah otağı, ideoloji otaq, məişət otağı, yeməkxana, hamam, əşya anbarı və digər xidməti otaqlara baxış keçirdikdən sonra şəxsi heyətlə birlikdə nahar edib.

Sonra Müdafiə naziri qoşunların təmas xəttinə yaxın kəndlərdən birində yaşayan Aprel döyüşləri zamanı şəhid olmuş Orxan Həmidovun ailəsini ziyarət edib. Görüşdə şəhid ailələrinə dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan danışılıb, Azərbaycanın Prezidenti və Birinci vitse-prezidentinin bu istiqamətdə atdığı bütün addımlara və qəbul edilən qərarlara görə dərin minnətdarlıq ifadə olunub.

Şəhidin anası Tamilla xanım ailəsinə dövlət başçısı tərəfindən göstərilən diqqətə və Müdafiə naziri adından təqdim edilən hədiyyələrə görə təşəkkür edərək bildirib ki, hərbi qulluqçuların köməyi ilə oğlunun ailəsinin yaşadığı həyətə su çəkilərək "Orxan bulağı" inşa edilib.

Çay süfrəsi ətrafında davam edən söhbət zamanı şəhidin ailə üzvləri Azərbaycan Ordusunun qüdrətinə və qələbəsinə inamın böyük olduğunu qeyd edərək qoşunların təmas xəttinə yaxın ərazilərdə yerləşən yaşayış məntəqələrinin bölmələrimiz tərəfindən etibarlı müdafiə olunduğunu və əhalinin hərbçilərimizə yüksək etimad göstərdiyini bildiriblər.

Cəbhəboyu zonaya səfər çərçivəsində Müdafiə Nazirliyi rəhbərliyinin keçirdiyi görüşlərdə Füzuli rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev və Milli Məclisin deputatı Aqil Abbas da iştirak ediblər.

# Ali Baş Komandanın tapşırığı ilə hərbi hissələrin yoxlanılması davam edir

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti hərbi hissələri yoxlamaq məqsədilə cəbhəboyu zonada səfərdədir.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, döyüş növbəsi çəkən şəxsi heyətlə görüşən Müdafiə nazirinə əməliyyat şəraiti barədə məruzə edilib. Sonra general-polkovnik Zakir Həsənov bölmələrin döyüşə hazırlıq səviyyəsini yoxlayıb, düşmənin ön mövqelərini müşahidə edib.

Düşmənlə təmas xəttindəki vəziyyəti qiymətləndirən nazir Ali Baş Komandanın tapşırıqlarını və qarşıda duran vəzifələri şəxsi heyətə çatdırıb.

Müdafiə naziri bölmələrin döyüş qabiliyyətini, maddi-texniki təminatını, silah-sursat və hərbi texnika ilə təchizatını, həmçinin şəxsi heyətin mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirib.

Sonda nazir çay süfrəsi arxasında şəxsi heyətlə söhbət aparıb.

# Təmas xəttində növbəti monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, iyulun 25-də Goranboy rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib.

Müdafiə Nazirliyi Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Oqnyen Yoviç və Saymon Tiller keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Mixail Olaru keçiriblər.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***25 iyul 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 16 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Muncuqlu kəndlərində, Krasnoselsk rayonunun Cil kəndində yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Baş Qərvənd, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***26 iyul 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 19 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində yerləşən mövqelərdən Qazax rayonunun Fərəhli kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Sarıcalı, Acarlı, Xocavənd rayonunun Kuropatkino və Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Müdafiə naziri hərbi təyyarənin qəzaya uğraması ilə əlaqədar yaradılan əməliyyat qərargahında olub

*Müdafiə Nazirliyinin rəhbərliyi, aidiyyəti qurumların və xidmətlərin nümayəndələrindən ibarət qrup qəzanın səbəblərinin araşdırılması və müvafiq tədbirlərin həyata keçirilməsi məqsədilə yaradılan əməliyyat qərargahında olub.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xidməti müşavirə keçirilib. Nazir digər dövlət qurumları ilə qarşılıqlı fəaliyyətin davam etdirilməsi barədə müvafiq göstəriş verib.



## Azərbaycan HHQ-nin təyyarəsi təlim-məşq uçuşları zamanı qəzaya uğrayıb

İyulun 24-də saat 22.00 radələrində plana uyğun olaraq gecə vaxtı təlim-məşq uçuşları keçirən Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsi ilə qəflətən rabitə əlaqəsi kəsilib və aviasiya vasitəsi radarlardan itib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ilkin ehtimala görə aviasiya qəzası nəticəsində hərbi təyyarə Xəzər dənizinə düşüb.

Pilotun axtarışı və xilas edilməsi üçün təxirəsalınmaz tədbirlər həyata keçirilir.

Müdafiə nazirinin tapşırığına əsasən yaradılan komissiya qəzanın səbəblərinin araşdırılmasına başlayıb.

# “O torpaqlarımızı da işğaldan azad edəcəyik!”

( Əvvəli 1-ci səhifədə)

- 4 il sərbəst güləş, 2 il əlbəyaxa döyüşlə məşğul olmuşam. Əsgərlikdən sonra gələcəyimi idmanla bağlamaq, professional idmançı kimi bayrağımızı zirvələrə qaldırmaq niyyətindəydim.. Mübariz İbrahimovun qəhrəmanlığından sonra ömür yolumda kəskin dönüş etməli olduğumu anladım. Məsələ bayrağı zirvələrdə dalğalandırmaqdırsa, onda şanlı bayrağımızı Şuşada, Kəlbəcərdə, Laçında, Ağdərədə... dalğalandırmağın daha gərəkli olduğunu düşündüm, həyatımı ordu ilə bağlamağa qəti qərar verdim. Mübarizgilə getdiyim günü, atasıyla söhbətimi unutmuram. Ağakərim kişi o günü belə xatırlayır: "Hadisənin səhəri günü tezdən saat 5-6 radələrində mənə zəng gəldi. Soruşdular ki, oğlunuz evə gəlməyib? Hətta bildirdilər ki, çoxlu silah götürüb və ərazidən uzaqlaşıb. Dedim, mən oğlumu tanıyıram, sərhədə tərəf gedin...". Bu söhbəti əsgərlərimə tez-tez danışıram. Bildirirəm ki, Ali Baş Komandan əmr verənədək bizi



axtaranlar yerimizin səngər olduğunu düşünməlidirlər.

Söhbətinin davamında hər an ayıq-sayıq Vətəni qorumağın verdiyi qürurla düşmənin hər bir təxribatının qarşısını almağa, Ali Baş Komandanın əmri ilə səngərləri aşıb keçməyə hazır olduğunu bildirən Kənan, bunun üçün bacarıqlı, vətənpərvər əsgərlərin də çox olduğunu vurğulayır.

- Biz Ali Baş Komandanın əmri ilə bu səngərləri aşıb keçəcəyik, torpaqlarımızı işğaldan azad edəcəyik. Qarşıda gördüyünüz o torpaqlar bizimdi. Torpaqlarımızı azad etmək uğrunda ölmək də, öldürmək də şərəfdi. Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin dediyi "Aprel döyüşləri bizim şanlı tariximizdir, böyük qələbəmizdir. Azərbaycan Ordusu Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının torpaqlarının bir hissəsini işğalçılardan azad etdi, minlərlə hektar torpağa biz nəzarət edirik. Bu torpaqlara həyat qayıdır, bu torpaqlarda Azərbaycan bayrağı dalğalanır, insanlar qayıdır, yeni qəsəbə salınıbdır. Bizim hərbi qələbəmiz Azərbaycan xalqının gücünü, yenilməz ruhunu göstərir. Onu göstərir ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Bunu göstərir ki, biz öz torpaqlarımızı azad edəcəyik. Buna nail olmaq üçün daha da güclü olmalıyıq və olacağıq" sözləri bizə əlavə stimul verir. Hər birimiz Ali Baş Komandanımızın əmri ilə irəli atılacaq, torpaqlarımızı azad edəcəyik. Heç bir azərbaycanlı bu işğalla barışmır, barışa bilməz.

Döyüş növbəsində olan əsgərlərin yanındayıq. Tez-tez bu səngərlərdə olsam da, hər dəfə yaşadığım duyğular bütün ruhuma sarılır. Az sonra görüşəcəyim əsgərin kim olduğu, hərbi xidmətə haradan gəldiyi haqda heç bir məlumatım yoxdur, lakin tək bir şeyi bilirəm ki, bu gün səngərdə dayanan hər bir əsgərin, gizirin, zabitin bir vəzifəsi, bir amalı var - işğalı sonlandırmaq, bayrağımızı bütün və bütöv Azərbaycanda dalğalandırmaq.

Məni düşüncələrdən əsgər Elnur İbrahimlinin Azərbaycan əsgərinə xas gur səsi ayırır. Elnur Masallı rayonundan hərbi xidmətə çağırılıb. Onun da üreyində düşmənə nifrət, qəzəb var. Əlindəki silahı bərk-bərk sıxması, düşmən fəaliyyətinə göz qırpmadan nəzarət etməsi keçirdiyi hisslərin təzahürüdür.

Elnur suallarımıza da gözünü düşmən mövqelərindən ayırmadan cavab verir. İlk sualım yolboyu düşündüyüm qisas haqqındadır.

- Əsgər yoldaşlarımızla mütəmadi söhbətlərimiz olur. Düşmən üzərinə hücumdan, qələbədən, torpaqlarımızı azad edəcəyimiz gündən danışırıq. Onlara hər söhbətimizdə şəhidlərimizin qisasını alacağımızı deyirik. Ali Baş Komandanın əmrinə hazırıq və bu hazırlığımızı hər gün artırmaqdayıq. Erməni əsgəri bilir ki, Azərbaycan əsgəriylə döyüşməyə gücü, qüdrəti çatmayacaq. Biz əminik və əmin edirik ki, son damla qanımıza qədər Vətənin hər qarış torpağı uğrunda vuruşacaq, torpaqlarımızı azad edərək tarix yazanlar sırasında olacağıq.

Tarixdə öz hünəri, igidlikləri ilə dastanlar yazan qəhrəmanlar çox olub. Qəhrəmansız bir millətin tarixi səssiz dərya, durğun dəniz kimidir. Yunanlar tarixlərini əfsanəvi qəhrəmanlarıyla formalaşdırıb. Karfagen Hannibalın sayəsində səsini bəşəriyyətə çatdıra bilib. İran Firdovsinin təfəkkürü və qələmi ilə rəngarəng qəhrəmanlıq dastanlarına qovuşub. Lakin qəhrəmanlar diyarı Azərbaycan Mübariz, Samid, Çingiz kimi qəhrəmanların timsalında bu əsgərlər kimi igidlər, ərənlər yetişdirir. Tarixən qəhrəmanlarımızın çoxluğuna görə miflər, əfsanələr yaratmağa gərək qalmayıb. Bu fikirlərlə növbəti Vətən keşikçisinin döyüş mövqeyinə çatıram.

Gizir Kənan Quliyev Tovuzdan hərbi xidmətə çağırılan əsgər Murad Qasımov haqqında xoş sözlər deməyi unutmur.

- Murad olduqca bacarıqlı əsgərdir. Xidmətini nizamnamə çərçivəsində qurur. Həm də şair təbiətlidir. Asudə vaxtlarında əsgərlərə şeirlər deyir, ara-sıra özü də yazır. Onun hər döyüş növbəsinə çıxarkən əsgər yoldaşlarına dediyi "Mənə dua, düşmənə lənət oxuyun" sözləri hamının dilində əzbər olub. Bu sözləriylə sanki mənəvi rahatlıq tapır.

İti baxışlı, şux görünüşlü əsgər Murad Qasımov silahı sinəsinə bərk-bərk sıxaraq sanki mən alınmaz qalanın müdafiəçisiyəm, - deyə hayqırmaq istəyir.



Əsgər Ceyhun Sərdarov işğalda olan Şuşadan, Kəlbəcərdən, Laçından, Ağdərədən söz açdığını qeyd edir. Deyir ki, görməsə də oralar üçün darıxır, tezliklə ora gedəcəyi günü arzulayır.

Həmsöhbət olduğum bütün əsgərlərin qisas hissini ürəklərində yaşatdığını, ürəklərinin qan ağladığını hiss etdim. Sənin də ürəyin bu hisslərlə qanayırmı?

Bir kəlamı xatırlayıram: "İntiqam hissi ilə yaşayanların yaraları həmişə təzədir". Qarabağa qayıtmayınca, İsa bulağından su içməyincə bu yara gizilədəcək. Uşaqlıqdan kənd həyatını çox sevmişəm. Həyətimizdə atlar olduğundan, at çapmağı, onlara qulluq etməyi çox sevirəm. Dəli Tayfun isə ən sevdiyim atdır. Həm sürətli, həm də görünüşcə çox gözəldir. Atam deyir ki, sənin atın Qarabağ atlarının cinsindən olduğu üçün digərlərindən seçilir. Tez-tez yuxumda Dəli Tayfunla Qarabağda gəzirəm, dağlara qalxıram. Ali Baş Komandanın əmri ilə öz tarixi torpaqlarımıza qayıdacaq, öz atımla Qarabağ dağlarını gəzəcəyəm, - əsgər Ceyhun Sərdarov belə deyir.

...Əsgərlərlə sağollaşıram. Qisasın qiyamətə qalmayacağına onlar da inanır, mən də inanıram...

**Baş leytenant
Ceyhun CƏFƏRLİ,
"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan sülhməramlılarının bir qrupu Əfqanıstana yola salınıb





*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, NATO-nun "Qətiyyətli Dəstək" missiyasının tərkibində fəaliyyət göstərmək məqsədilə Azərbaycan Ordusunun bir qrup sülhməramlısı plana uyğun olaraq rotasiya qaydasında Əfqanıstana yola salınıb.*

Azərbaycan Ordusunun Əfqanıstandakı sülhməramlı missiyası 2002-ci il noyabrın 20-dən başlayıb.

Hazırda Azərbaycan Ordusunun 120 hərbi qulluqçusu, 2 hərbi həkimi və 6 qərargah zabiti olmaqla Əfqanıstandakı missiyada iştirak edir.

# "Beynəlxalq Ordu Oyunları" dövlətlərarası münasibətləri daha da möhkəmləndirir

*Dövlətlərarası münasibətlər həm də müxtəlif beynəlxalq tədbirlərdə möhkəmlənir. Hərbi əməkdaşlıq baxımından dəyərli hesab edilən belə tədbirlərdən biri də ənənəvi olaraq keçirilən "Beynəlxalq Ordu Oyunları"dır. Bu tədbir iştirakçı dövlətlərin orduları haqqında məlumatları daha da zənginləşdirir.*

2015-ci ildən keçirilən "Beynəlxalq Ordu Oyunları" dünyada ən diqqət çəkən yarışlardan biridir. Ölkəmiz bu oyunların iştirakçısı olaraq, beynəlxalq arenada qazandığı reputasiya ilə müəyyən nüfuz sahibidir. "Beynəlxalq Ordu Oyunları" dövlətlərarası hərbi əməkdaşlığın daha da möhkəmlənməsi, hərbi xidmətin nüfuzunun artırılması, döyüş imkanlarının nümayişi, şəxsi heyətin peşəkarlığının və döyüş qabiliyyətinin daha da yüksəldilməsi, eləcə də iştirakçı dövlətlərin Silahlı Qüvvələri arasında qarşılıqlı etimad mühitinin formalaşması, dostluq və rəqabət gücünün daha da artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu yarışlarda biz Qarabağımızla bağlı həqiqətləri dünyaya çatdırmaq üçün böyük imkan əldə edirik. Bütün dünya ordumuzun inkişafını görərək, ölkəmizi etibarlı tərəfdaş kimi qiymətləndirir. "Beynəlxalq Ordu Oyunları" yarışları ölkəmizin inkişafını və ordumuzun gücünü bir daha nümayiş etdirir.

Hər il olduğu kimi bu il də tankçılarımız, snayperlərimiz, aşpazlarımız, ilk dəfə qatıldığımız "Spasskaya başnya" XII beynəlxalq hərbi musiqi festivalının və "Hərbi-tibbi estafet" müsabiqəsinin iştirakçıları yarışlara daha ciddi və məsuliyyətlə hazırlaşıblar.

Builki "Beynəlxalq Ordu Oyunları"nda sərgi təşkil ediləcək və bu sərgidə Azərbaycanımızın mədəniyyətini, tarixini, ədəbiyyatını, adət-ənənələrini, sənaye və kənd təsərrüfatı sahəsində inkişafını əks etdirən ekspozisiyalar təqdim olunacaq. Oyunlar keçirilən günlərdə qonaqlar bu ekspozisiyalarla yaxından tanış olmaq imkanı qazanacaqlar. Ötən il ən çox diqqəti Azərbaycanın təqdim etdiyi sərgi diqqəti cəlb etmişdi. Gələnlər sərkərdələrimizin, Milli qəhrəmanlarımızın rəsmlərinə böyük maraqla baxırdılar. Müasir Azərbaycanımızın dövlətçilik memarı, Ulu Öndərimizin həyat və fəaliyyətini əks etdirən kitablar diqqəti xüsusilə cəlb edirdi. Sərgidə, həmçinin manitor vasitəsi ilə ordumuzda olan ən qabaqcıl silah-texnikaların video görüntüsü nümayiş olunacaq.

Rusiya Federasiyasının paytaxtı Moskva şəhərinin poliqonunda keçiriləcək "Səhra mətbəxi" yarışmasında hərbi aşpazlarımız öz məharətlərini göstərərək, milli mətbəximizin ən ləziz təamlarını nümayiş etdirəcəklər. 2018-ci ildə keçirilən "Beynəlxalq Ordu Oyunları"nda ölkəmizin komandası da daxil olmaqla müxtəlif ölkələrin hərbi aşpazları yarışların iştirakçıları və qonaqlar üçün 150-dən çox milli mətbəx nümunəsi təqdim etmişdilər. Rusiya Federasiyasının Müdafiə naziri ordu generalı Serqey Şoyqu da daxil olmaqla çoxsaylı qonaqlar Azərbaycan Ordusunun aşpazlarının hazırladıqları təamların dadına baxmışdılar. Hətta ordu generalı Serqey Şoyqu bizim mətbəxi heyrətamiz adlandırmışdı.

Tankçılarımız ötən illərdə olduğu kimi bu il də ölkəmizi "Tank biatlonu" müsabiqəsində layiqincə təmsil edəcəklər. Xatırladaq ki, bu yarışlar üç mərhələdə keçiriləcək: fərdi, estafet və final mərhələsi. İnanırıq ki, hər bir mərhələdə yüksək nəticə əldə etmək üçün tankçılarımız öz bilik, bacarıq və qabiliyyətlərini əsirgəməyəcəklər. Hərbçilərimiz, həmçinin Qazaxıstanda keçiriləcək "Artilleriya atəşinin ustaları" və Belarus Respublikasının Brest təlim poliqonunda keçiriləcək "Snayper həddi" müsabiqəsində iştirak edəcəklər.

Xarici ölkələrdə keçirilən yarışlarda iştirak etməklə yanaşı, ölkəmiz "Dəniz kuboku" müsabiqəsinə ev sahibliyi edəcək. Bu müsabiqəyə hazırlıq yüksək səviyyədə gedir. Xatırladım ki, dənizçilərimiz 2017-ci ildə yüksək nəticə göstərərək Rusiya ilə birinci yeri bölüşmüşdülər. "Beynəlxalq Ordu Oyunları-2018"-in bağlanış mərasimi heç vaxt yaddaşımdan silinməyəcək. "Dəniz kuboku" müsabiqəsi zamanı ölkəmizdə olan dövlətlərin nümayəndələri ilə həmsöhbət olduq.



Onlar öz təəssüratlarını bizimlə bölüşərək yarışın yüksək səviyyədə təşkil olunmasından, Bakımızın gözəlliyindən, xalqımızın qonaqpərvərliyindən danışırdılar. Onlar multikultural və tolerant ölkədə yaşadığımızı vurğulayırdılar.

Bu ildən etibarən tibb işçilərimizdən ibarət komanda Özbəkistanda keçirilən "Hərbi-tibbi estafet" müsabiqəsində iştirak edəcəklər. Bu müsabiqədə tibb işçilərinin və ən yaxşı mexanik-sürücü adı uğrunda həm fərdi, həm də komanda yarışları keçiriləcək. İştirakçılar fərdi olaraq ştat silahlardan atəş açılması, manеə zolağının dəf edilməsi, ilkin tibbi yardım göstərilməsi, yaralının döyüş meydanından çıxarılması üzrə yarışacaqlar. Komanda şəklində tibb işçilərinin qarşısında duran əsas vəzifələr yaralının axtarışı və təxliyəsi, qanaxmanın dayandırılması üçün sarğı qoyulması, yaralının nəqliyyat vasitəsinə mindirilməsi, həmçinin sürücü-mexanikin çətin relyefdə nəqliyyat vasitəsini idarə etməsidir. Qeyd edək ki, yarışın nəticəsi həm vaxta görə, həm də ki, qarşıya qoyulan tapşırığın düzgün yerinə yetirilməsinə əsasən müəyyənləşdiriləcək. Əgər bir neçə komanda vaxt baxımından eyni nəticə göstərərsə, onda fərdi tapşırıqda birincilik qazanan tibb işçisinin komandası qalib seçiləcək.

Dünyanın ən böyük musiqi festivallarından olan "Spasskaya Başnya" Beynəlxalq Hərbi Musiqi festivalıdır. Bu il izləyicilər hərbi orkestrimizin maraqlı çıxışlarını izləyəcəklər. Ölkəmiz bu festivalda ilk dəfə iştirak edəcək. Ölkəmizi Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin hərbi orkestri təmsil edəcək. Təhsil ocağının orkestri bu gün Azərbaycan Respublikası Müdafiə Nazirliyinin əsas orkestrlərindən biri sayılır. Festivalın keçirilmə şərtlərinə uyğun olaraq yarışda orkestrlə birlikdə Silahlı Qüvvələrin Mahnı və Rəqs Ansamblının xoreoqrafiya qrupu da çıxış edəcək. Festival zamanı hər komandaya altı dəqiqə vaxt veriləcək. Bu vaxt ərzində orkestrlər təmsil etdikləri xalqların və digər dünya xalqlarının mahnı və marşlarını ifa edəcəklər. Heyətimiz festivalda Müslüm Maqomayevin "Radio marşı", "Odlar yurdu Azərbaycan", Əlimərdan Əliyevin "Bayramlı Azərbaycan", Üzeyir Hacıbəyovun "Cəngi" musiqiləri ifa ediləcək. Həmçinin orkestrimiz şəhər sakinləri və qonaqlar üçün də bir neçə konsert proqramı təşkil edəcək. Şəhərin mərkəzi meydanlarında baş tutacaq həmin konsertlərdə Fikrət Əmirov, Qara Qarayev, Polad Bülbüloğlu, Tofiq Quliyev, Rauf Hacıyev və digər bəstəkarlarımızın musiqi əsərləri və dünya klassiklərinin mahnıları tamaşaçılara təqdim ediləcək.

Onu da qeyd edək ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov "Beynəlxalq Ordu Oyunlarına" hazırlığı yaxından izləyir, prosesi daima nəzarət altında saxlayır. Musiqi festivalı üçün musiqiçilərimizə yeni formalar hazırlanıb, müasir və ən bahalı alətlər alınıb. Müdafiə Nazirliyinin rəhbər heyəti tərəfindən digər müsabiqələrin iştirakçılarının ehtiyacları da diqqət mərkəzində saxlanılır. Bu cür diqqət və qayğı hər birimizi mübarizəyə daha da ruhlandırır. Biz də çalışacağıq ki, bizə göstərilən etimadı doğruldaq, ölkəmizi layiqincə təmsil edək.

**Polkovnik**
**Etibar ƏLİYEV,**
**Şəxsi Heyət Baş İdarəsi İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# "Avstraliyanın Rayd şəhər Şurasının qəbul etdiyi sənəd hüquqi baxımdan heç bir əhəmiyyət kəsb etmir"

*Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva Avstraliyanın Rayd şəhər Şurasının Azərbaycan Respublikasının Ermənistan Respublikası tərəfindən işğal edilmiş Xankəndi şəhəri ilə "dostluq əlaqələrinin yaradılması" haqqında sənəd qəbul etməsi ilə bağlı KİV-in sualını cavablandırıb.*

AZƏRTAC xəbər verir ki, mətbuat katibi deyib: "İlk növbədə qeyd etmək istərdim ki, Rayd Avstraliyanın ən çox erməni əsilli vətəndaşının cəmləşdiyi şəhərdir. Təsadüfi deyil ki, cəmi 2 nəfər tərəfindən qəbul edilmiş sözügedən sənədin layihəsi Rayd şəhər Şurasının məhz erməni əsilli üzvü Sarkis Yedelyan tərəfindən irəli sürülüb və şəhərin meri Cerom Laksal tərəfindən dəstəklənib.

Xatırlatmaq istərdim ki, Avstraliya Federal Hökuməti Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü birmənalı şəkildə dəstəkləyir.

Avstraliyanın inzibati ərazi vahidlərinin yerli icra hakimiyyəti və ya qanunverici orqanları tərəfindən ermənilərin lobbiçilik səyləri əsasında qəbul olunan bu kimi sənədlərə gəldikdə isə vurğulamaq istərdim ki, belə sənədlər hüquqi nöqteyi-nəzərdən heç bir əhəmiyyət kəsb etmir, yalnız müəyyən dairələrin və ya lobbi qruplarının maraqlarına xidmət edən kağız parçasıdır".

# Hərbi hissələrdə tədbir keçirilib



1991-ci ilin oktyabrında Azərbaycanın dövlət müstəqilliyi bərpa olundu. Dövlətçilik atributu olan ordu quruculuğuna gərgin siyasi bir şəraitdə başlanıldı. Ordu quruculuğunda ilkin əsaslı islahatlar aparıldı, nizami ordunun formalaşmasına şərait yarandı.

Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə ilk hərbi hissələrimizdən biri 1992-ci ilin 23 iyulunda düşmənlə təmas xəttində yaradılan artilleriya təyinatlı "N" hərbi hissəsinin 27-ci ildönümü münasibətilə təntənəli tədbir keçirildi.

Tədbirdə hərbi hissənin şəxsi heyəti, Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin, Bakı şəhər Baş Mədəniyyət İdarəsinin və ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

Ümummilli lider Heydər Əliyevin, Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Öncə artilleriya komandanının təbrik məktubu şəxsi heyətə çatdırıldı.

Polkovnik-leytenant Sadiq Mehrəliyev əlamətdar gün münasibətilə şəxsi heyəti təbrik edərək, dünyanın inkişaf etmiş ölkələrinin orduları ilə bir sırada dayanan orduda xidmət etdiklərindən qürur duyduğunu bildirdi.

- Bu gün hərbi hissəmizin həyatında ən əlamətdar günlərdən biridir. 27-ci ildönümünü qeyd etdiyimiz hərbi hissə yarandığı gündən böyük döyüş yolu keçib. Hərbi hissəmiz hər an qarşısına qoyulan bütün tapşırıqları həll etməyə qadirdir. Ordumuz gündən-günə güclənir, qüdrətini və döyüş qabiliyyətini artırır. Biz hərbçilər Ali Baş Komandan cənab İlham Əliyevin müvafiq əmrini gözləyirik. Qətiyyətlə deyə bilərik ki, ordumuz ölkəmizin ərazi bütövlüyünü bərpa etməyə hazırdır.

Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi vəzifəsini icra edən mayor İlkin Qayıbov bildirdi ki, mənfur düşmənlərimiz 1980-ci illərin axırlarından torpaqlarımızı işğal edirdi, dinc əhali yurd-yuvalarından didərgin salınırdı. "Belə bir vaxtda yaradılan və formalaşan müstəqil Azərbaycanın ordu quruculuğu ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1994-cü ildən 2003-cü ilə kimi ordu quruculuğunda qazanılan uğurlar cənab İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra daha da genişləndi...

Bu gün ildönümünü qeyd etdiyimiz artilleriya hərbi hissəsi atəşkəs əldə olunana qədər Qazax, Tovuz, Goranboy, Tərtər, Ağdam, Qubadlı, Füzuli, Zəngilan istiqamətlərində gedən döyüşlərdə iştirak edib. Şəxsi heyətinin böyük əksəriyyəti könüllülərdən ibarət olan yerli müdafiə batalyonları ümummilli lider Heydər Əliyevin fərmanı ilə buraxıldı. Səriştəli, bacarıqlı və təcrübəli zabitlər müvafiq əmrlə yenidən nizami ordu sıralarına çağırıldı".

Döyüş yolu keçən hərbi hissə Ağcabədi, Ağdam, Tərtər, Goranboy istiqamətində gedən döyüşlərdə, o cümlədən 2016-cı ilin Aprel döyüşlərində fədakarlıq və rəşadət göstərib. Hərbi hissənin 1 nəfər hərbi qulluqçusu "Vətən uğrunda", 5 nəfəri "Hərbi xidmətlərə görə", 25 nəfəri "Hərbi xidmətdə fərqlənməyə görə" medalı ilə təltif olunub.

Tədbirdə çıxış edənlər əlamətdar gün münasibəti ilə təbriklərini çatdıraraq qeyd etdilər ki, torpaqlarımızın azad olunması arzusu hər bir azərbaycan vətəndaşının ömrünün mənası, yaşama səbəbidir. "Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan, Ali Baş Komandanın diqqət və qayğısı ilə inkişaf edən ordumuz regionda ən güclü ordudur. Biz ordumuza inanırıq. Ordumuz güvənc yerimiz, qürur mənbəyimizdir".

Hərbi hissə komandirinin əmri ilə bir qrup hərbi qulluqçu fəxri fərman və qiymətli hədiyyələrlə təltif olundu.

Tədbir Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin və Bakı şəhər Baş Mədəniyyət İdarəsinin yaradıcı kollektivlərinin təqdim etdiyi maraqlı konsert proqramı ilə başa çatdı.



* * *

Xalqın, dövlətin gələcəyi onun vətəndaşının öz ölkəsinə olan övladlıq borcunu layiqincə yerinə yetirməsindən asılıdır. Bunun üçün də hər bir Azərbaycan gənci Vətənimizin gələcəyi üçün əlindən gələni əsirgəməməli, dövlətə olan sevgi və sədaqətilə vətənpərvər olmalıdır.

Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzi "N" hərbi hissəsində şəxsi heyətin asudə vaxtının maraqlı və səmərəli təşkili məqsədilə tədbir keçirib.

Tədbirdə hərbi hissənin şəxsi heyəti, Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin, Bakı şəhər Baş Mədəniyyət İdarəsinin və ictimaiyyətin nümayəndələri iştirak ediblər.



Ümummilli lider Heydər Əliyevin, Vətənimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi vəzifəsini icra edən mayor İlkin Qayıbov tədbiri açaraq bildirib ki, yaşadığımız torpağı qorumaq üçün vətənpərvərlik əsas şərtdir. "Əsl vətənpərvər Vətən sevgisini gördüyü işdə, çəkdiyi zəhmətdə, fəaliyyətində nümayiş etdirir. Əziz əsgərlərimiz, buna görə də vətənpərvərliyin meyarı söz ilə əməlin üst-üstə düşməsidir.

Ümummilli liderimiz Heydər Əliyevin milli dövlətçilik, vətənpərvərlik ideyaları bugünkü inkişafımızın təməlini təşkil edir. Azərbaycanımızın dünyanın inkişaf etmiş dövlətləri ilə eyni sırada dayanmasının təməlində məhz Ulu Öndərin xalqımıza nümayiş etdirdiyi vətənpərvərlik tərbiyəsi dayanır. Eyni zamanda, bu gün əvəzsiz nümunəyə çevrilərək vətəndaşlarımıza Vətən sevgisi aşılayır. Dahi şəxsiyyətin fikrincə, Vətən yalnız coğrafi ərazi deyil, harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının şan-şöhrəti, qeyrəti, əyilməz vüqarı, qürur mənbəyi, bütün varlığı, taleyi, gücü, qüdrəti, əbədi səcdəgahıdır. Bugünkü müasir, müstəqil, çiçəklənən Azərbaycan bütün varlığını, ömrünü, zəkasını öz xalqına, millətinə həsr etmiş ulu öndər Heydər Əliyevin bizə ən müqəddəs, ən ülvi əmanəti, yadigarıdır. Bizlər də bu əmanəti canımız bahasına da olsa qorumalı, adını göylərə ucaldaraq gələcək nəsillərə ötürməliyik".

Tədbirin bədii hissəsində Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivi və Bakı şəhər Baş Mədəniyyət İdarəsinin solistləri maraqlı konsert proqramı ilə çıxış ediblər.

**Baş leytenant Günay TAĞIYEVA, "Azərbaycan Ordusu"**

# "Dağlıq Qarabağ problemi üzrə danışıqlar münaqişənin birbaşa iştirakçıları olan Ermənistan və Azərbaycan arasında aparılır"

Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Leyla Abdullayeva Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibinin Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı söylədikləri ilə bağlı KİV-in sualını cavablandırıb.

AZƏRTAC xəbər verir ki, mətbuat katibi deyib: "İlk növbədə nəzərə alınmalıdır ki, Ermənistan XİN-in mətbuat katibi tərəfindən qondarma "DQR" kimi təqdim edilən ərazi bu gün Ermənistan Respublikasının silahlı qüvvələrinin hərbi işğalı altında olan, beynəlxalq tanınmış Azərbaycan əraziləridir. Bunu BMT Təhlükəsizlik Şurasının qətnamələri və beynəlxalq təşkilatların çoxsaylı qərar və qətnamələri təsdiq edir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən bəhs edən hər hansı şəxsin birinci növbədə bu sənədlərlə tanış olması vacibdir.

Münaqişənin həlli üzrə aparılan danışıqlara Dağlıq Qarabağın erməni icmasının da daxil edilməsi məsələsi ilə bağlı dəfələrlə mövqeyimiz, həmçinin ən yüksək səviyyədə səsləndirilib. Bir daha təkrar etmək istərdik ki, danışıqlar münaqişənin birbaşa iştirakçıları - Ermənistan ilə Azərbaycan arasında aparılır. O ki qaldı Dağlıq Qarabağın erməni və azərbaycanlı icmalarına, danışıqların müəyyən mərhələsində əsas tərəflərin razılığı ilə hər iki icmanın nümayəndələri prosesə cəlb oluna bilər. Bu haqda ATƏT-in qərarı ilə tanış olmaq istəyənləri təşkilatın 1992-ci il Helsinki qərarını oxumağa dəvət edirəm.

Beynəlxalq ictimaiyyətin tələblərinə uyğun olaraq, Azərbaycanın işğal olunmuş ərazilərdən etnik təmizləməyə məruz qalaraq didərgin salınmış azərbaycanlılar öz evlərinə şərəflə geri qayıtdıqdan sonra və Dağlıq Qarabağın hər iki icmasının birgə yaşayışı təmin olunduqdan sonra Dağlıq Qarabağın statusu məsələsinə azərbaycanlı və erməni icmalar tərəfindən birgə baxıla bilər və bu barədə rəsmi Azərbaycanın mövqeyi bəllidir.

Təəssüflə qeyd etməliyəm ki, bu gün məhz işğalçı Ermənistan rəhbərliyi bir tərəfdən münaqişənin yalnız sülh yolu ilə həllindən danışıb, digər tərəfdən azərbaycanlı hərbi qulluqçuların məhv edilməsi əmrini verir.

Sözdə sülhməramlı bəyanatlar verərək, əməldə qanunsuz hərbi işğalı davam etdirən və möhkəmləndirməyə çalışan Ermənistanın əsl niyyəti hamıya bəllidir. Ermənistan tərəfi ilk dəfə deyil ki, bu kimi bəhanələrlə danışıqlarda irəliləyişin əldə edilməsinə maneçilik törədir".

*Ölkəmizdə ordu quruculuğu istiqamətində uğurla aparılan islahatların, xidmət, sosial-məişət şəraitinin və hərbi qulluqçuların maddi vəziyyətinin yaxşılaşdırılmasının, döyüş hazırlığının müasir tələblərə cavab verə bilən səviyyəyə çatdırılmasının nəticəsidir ki, Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır.*

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində ordumuzun döyüş qabiliyyəti daha da yüksəlib, maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm işlər görülür və görülməkdədir.*

*Ordu quruculuğu*

# "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən keçirilən irimiqyaslı təlimlər, yoxlamalar və digər tədbirlər, ordumuzun müasir döyüşün ən mürəkkəb tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirməyə hazır olduğunu, onun döyüş qabiliyyətinin və peşəkarlığının, yeni silah sistemlərindən və döyüş texnikalarından istifadə etmək bacarığının əhəmiyyətli dərəcədə artdığını göstərir.

Ordumuzun döyüş hazırlığı səviyyəsinin daha da yüksəldilməsi, qabaqcıl üsulların tətbiqi ilə təlim və tədris sisteminin daim təkmilləşdirilməsi, hərbi təhsilin və hərb elminin günün tələbləri səviyyəsində qurulması, şəxsi heyətin yeni döyüş şəraitinə uyğun təlimlərə cəlb edilməsi nəticəsində uğurlara nail olunması və bunların ictimaiyyətə çatdırılması gənclərin hərbi xidmətə marağını artırıb. Dövlət başçısının mütəmadi olaraq təmas xəttində olması hərbi qulluqçuların sosial problemləri ilə birbaşa maraqlanmaları və bu problemlərin diqqətdə saxlanılması, hərbi qulluqçular, xüsusilə də gənc nəsil arasında vətənpərvərlik hissini artırır.

2016-cı ilin Aprel döyüşlərində, Günnüt əməliyyatında qazanılan qələbələr, gənclərin vətənpərvərlik ruhunun daha da yüksəldilməsində müstəsna rol oynayır. Bu baxımdan Azərbaycan Ordusunun və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunan paradlar da yüksək döyüş qabiliyyətinə malik olan ordumuza etimadı, etibarı, güvənci artırdı.

Son illərdə davamlı olaraq güclənən və regionun ən qüdrətli ordusuna çevrilən Azərbaycan Ordusu son beş ildə hərbi potensialın təkmilləşdirilməsinin nəticəsidir ki, dünya miqyasında döyüş hazırlığına görə 50 ən güclü ordu sırasındadır. Beynəlxalq hərbi ekspertlərin də etiraf etdikləri kimi, müdafiə qüdrəti artan Azərbaycan Ordusunun reytinqinin yüksək səviyyədə olmasını Aprel döyüşləri və Günnüt zəfəri də təsdiqlədi.

Cəmiyyətdə Azərbaycan Ordusunda hərbi ximətin nüfuzunun artırılmasında sosial məsələlər müstəsna əhəmiyyətə malikdir.

Cəmiyyətin tərkib hissəsi olan orduda hərbi xidmətkeçmə şəraitinə və xüsusiyyətlərinə görə digər fəaliyyət sahələrindən fərqlənir. Məhz buna görə də hərbi xidmətkeçmə qaydaları, eləcə də hərbi xidmət keçən vətəndaşların vəzifə və hüquqları xüsusi qanunvericilik aktları ilə tənzimlənir. Belə ki, hərbi qulluqçuların hüquqi statusu və sosial təminatları Azərbaycan Respublikasının qanunvericilik aktları ilə müəyyən edilir. Bu gün hərbi qulluqçuların sosial təminatı dövlət tərəfindən xüsusi diqqət və qayğı ilə əhatə olunur. Məişət şəraiti yaxşılaşdırılır, yeni, müasir tələblərə cavab verən hərbi hissələr, yaşayış və qeyri-yaşayış binaları, xidməti mənzillər istifadəyə verilir.

Hərbi qulluqçuların sosial problemlərinin həllində ən mühüm addımlardan biri hərbi qulluqçuların və onların ailə üzvlərinin, eləcə də xidməti vəzifələrinin icrası zamanı həlak olmuş hərbi qulluqçuların ailə üzvlərinin sosial-hüquqi müdafiəsinin gücləndirilməsinə göstərilən qayğıdır. Onların mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" 28 dekabr 2011-ci il tarixli 569 nömrəli Fərmanı imzalayıb. Bu fərmana əsasən, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 20 təqvim ili və daha çox qüsursuz xidmət etmiş hərbi qulluqçuları dövlət vəsaiti hesabına mənzillə təmin edilirlər. Bu işlər dövlətimiz tərəfindən uğurla davam etdirilir. "Azərbaycan Respublikasında ipoteka kreditlərinin verilməsi mexanizminin təkmilləşdirilməsi" haqqında Azərbaycan Respublikası Prezidentinin imzaladığı 23 yanvar 2007-ci il tarixli 515 nömrəli Fərmana əsasən hərbi qulluqçuların güzəştli ipoteka kreditlərindən istifadə etmək hüququ var.

Hərbi qulluqçuların ailə üzvlərinə, valideynlərinə hərbi tibb müəssisələrində güzəştli şəkildə (40% ödənişlə) hər növ tibbi yardım göstərilir, onlar, həmçinin sanatoriya-kurort müalicəsi hüququna malikdirlər.

Hərbi xidmət vəzifələrinin icrası zamanı hərbi qulluqçuların səhhətinə zərər dəydikdə, onların Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulan qaydada və şərtlərlə zərərin ödənilməsi hüququ var. Belə ki, "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası" haqqında Azərbaycan Respublikasının Qanununa uyğun olaraq onlar 11 000 (on bir min) manat məbləğində sığorta edilirlər.

Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinə "Dəfn mərasiminin təşkili və keçirilməsi" qaydaları əlavə edilmişdir ki, bu qaydalara əsasən müharibə dövründə və döyüş əməliyyatları zamanı həlak olmuş, həmçinin xidməti vəzifəsinin icrası zamanı vəfat etmiş hərbi qulluqçuların dəfn mərasiminin təşkili və keçirilməsi xüsusiyyətləri müəyyən edilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydalarının" təsdiq olunması haqqında 15 yanvar 1994-cü il tarixli 10 nömrəli Qərarı mövcuddur. Bu qaydalar Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatda itkin düşmüş və qanunvericiliklə müəyyən edilmiş qaydada ölmüş hesab edilən şəxslərin və onların ailələrinin statusunun və sosial müdafiəsinin tənzimlənməsi, həyata keçirilməsi üzrə əsas tələbləri müəyyən edir.

Bundan əlavə, hərbi qulluqçulara məzuniyyət əvəzinə, pul kompensasiyasının ödənilməsi, müvəqqəti mənzil kirayəsi əvəzinə pul kompensasiyasının artırılması hərbi qulluqçuların və onların ailə üzvlərinin maddi rifahının yaxşılaşdırılması istiqamətində müsbət addım olmaqla yanaşı, sosial ədalət prinsipinin daim rəhbərliyin diqqətində olduğunun göstəricisidir ki, bu da ordumuzun imicinə böyük müsbət təsir edir.

Dövlətimizin müasir tələblərə cavab verə biləcək güclü ordusunun formalaşdırılmasında, yüksək döyüş hazırlığının təmin edilməsində hərbi təhsil sisteminin müstəsna əhəmiyyəti vardır. Döyüş hazırlığının daha da artırılması məqsədilə hərbi təhsil sisteminə ciddi diqqət yetirilir.

Hazırda Silahlı Qüvvələrin Hərbi Akademiyası, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Gizir hazırlığı" və "MAHHXHQ-ın hazırlığı", həmçinin zabit ixtisası üzrə təkmilləşdirmə kursları, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi, Cəmşid Naxçıvanski adına Hərbi Lisey, Heydər Əliyev adına Hərbi Lisey, Azərbaycan Tibb Universitetinin Hərbi Tibb fakültəsi və Hərbi Tibb Məktəbi də yüksək səviyyədə fəaliyyət göstərirlər. Hərbi təhsildə əldə olunan uğurlardan biri də xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul ballarının artırılmasıdır. Bu, gələcəkdə daha savadlı, daha peşəkar kadr hazırlığına və ordumuzun imicinin artmasına da öz töhfəsini verəcəkdir.

Son illərdə Azərbaycan Ordusunda konfrans və seminarların keçirilməsi elmi fəaliyyətin inkişafına təkan verməklə yanaşı, şəxsi heyətin intellektual səviyyəsinin yüksəldilməsi və onun maarifləndirilməsi işində də böyük rol oynayır.

Dövlətimizin orduya qayğısı nəticəsində onun beynəlxalq nüfuzu da artıb. Xarici dövlətlərin hərbi təhsil sistemi ilə tanışlıq, təcrübə mübadiləsi, həmçinin hərbi qurumlar və beynəlxalq təşkilatlarla qarşılıqlı tərəfdaşlıq münasibətlərinin qurulmasında Müdafiə Nazirliyinin beynəlxalq hərbi əməkdaşlıq fəaliyyətinin rolu xüsusi əhəmiyyətə malikdir. Bunun nəticəsidir ki, əksər xarici dövlətlər və nüfuzlu beynəlxalq hərbi təşkilatlar Azərbaycan Ordusu ilə əməkdaşlıqda maraqlı görünürlər. Bunun bariz nümunəsi kimi xarici ölkə səfirliklərinin Müdafiə Nazirliyi ilə əlaqələrini və NATO rəsmilərinin müxtəlif proqramlar, o cümlədən "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində ölkəmizə dəfələrlə səfərini göstərmək olar.

Beynəlxalq hərbi əməkdaşlıq Müdafiə Nazirliyinin hərbi, hərbi-siyasi, hərbi təhsil və hərbi-texniki sahələrdə xarici dövlətlərin hərbi qurumları və beynəlxalq təşkilatlarla ikitərəfli və çoxtərəfli formatda həyata keçirilən kompleks fəaliyyətlərdir. NATO-Azərbaycan birgə hərbi təhsil və təlim sahəsində fəaliyyəti, ölkələrimiz arasında mövcud əlaqələr, o cümlədən hərbi sahədə əməkdaşlığın perspektivləri, hərbi xidmətin nüfuzunun artırılması istiqamətində ardıcıl tədbirlərin həyata keçirilməsi də irimiqyaslı islahatlar çərçivəsində təqdirəlayiq işlərdəndir. Dövlətimiz beynəlxalq hərbi əməkdaşlığı həyata keçirməklə region ölkələri və regiondan kənar ölkələrlə ikitərəfli və çoxtərəfli münasibətlər qurur, Avro-atlantik strukturlarla inteqrasiyanı təmin edir.

Dövlətimizin hərbi sənaye kompleksi yüksək səviyyədə formalaşıb. Azərbaycan Cənubi Qafqazda öz ordusunu daxili imkanları hesabına hərbi texnika və silah-sursatla təchiz etmək gücünə malik olan yeganə ölkədir. Bu baxımdan ölkəmizdə keçirilən "ADEX" Beynəlxalq müdafiə sərgisi də xüsusi əhəmiyyət daşıyır. Bunlar dövlətimizin iqtisadi tərəqqisinin göstəricisidir. Müdafiə Nazirliyinin rəhbərliyi ordumuzun ölkəmizdə istehsal olunan silah-sursatla təchizatını daim diqqətdə saxlayır. Eyni zamanda, Müdafiə Nazirliyinin rəhbərliyi bu sahədə ordumuzun NATO ilə uğurlu əməkdaşlığına da xüsusi diqqət ayırır. Bu da Azərbaycan Ordusunun müasirləşməsinə və NATO standartlarına uyğunlaşdırılmasına mühüm töhfələr verir.

Son illər keçirilən "Beynəlxalq Ordu Oyunları"nda hərbçilərimizin iştirakı da ordumuzun nüfuzunun artırılmasında böyük rol oynayır. Hərbi qulluqçularımız belə tədbirlərdə həm başqa orduların təcrübəsini əyani şəkildə görür, müşahidə edir, həm də öz peşəkarlığını nümayiş etdirir. Bunlar beynəlxalq səviyyədə də, ölkə ictimaiyyətində də ordumuz haqqında xoş təəssüratlar yaradır.

İctimaiyyətlə əlaqələrin qurulması işinin keyfiyyəti də ordumuzun nüfuzunun artmasına xidmət edən güclü amillərdəndir.

Bu məqsədlə Həzi Aslanov adına Ordu-İdeoloji və Mədəniyyət Mərkəzinin və Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin səyyar-təşviqat qrupları tərəfindən ön xətdə xidmət aparan hərbi hissələrin döyüş postlarında hərbi qulluqçularla və cəbhə bölgəsində yaşayan əhali ilə hərbi vətənpərvərlik mövzularında daim təbliğat və təşviqat işləri aparılır, hərbi qulluqçular üçün mədəni ekskursiyalar təşkil edilir.

Azərbaycan Ordusunda ictimai nəzarətin və şəffaflığın təmin edilməsi məqsədilə "Açıq qapı" günləri keçirilir.

Cəmiyyətdə, xüsusilə gənc nəsil arasında Azərbaycan Ordusunda hərbi xidmətin nüfuzunun artırılması məqsədilə Azərbaycan Ordusunun Sənədli və Tədris Filmləri Mərkəzi və "Azərbaycan Ordusu" qəzeti redaksiyası tərəfindən Azərbaycan Ordusunun yüksək döyüş hazırlığını nümayiş etdirən, mənəvi-psixoloji vəziyyətini təbliğ edən və gənclərdə vətənpərvərlik hissini formalaşdıran video-çarxlar, sənədli filmlər çəkilir, müxtəlif janrlarda məqalələr və reportajlar dərc edilir, kütləvi vətənpərvərlik tədbirləri təbliğ edilir, Müdafiə Nazirliyinin rəsmi saytında, eləcə də digər KİV-də yayılır.

Mütəmadi olaraq KİV nümayəndələrinin hərbi hissələrə, əsasən cəbhə bölgələrinə səfərləri təşkil edilir, hərbi hissələrdə şəxsi heyətlə görüşlər keçirilir və onların xidmət şəraitləri, gündəlik fəaliyyətləri ilə yaxından tanış olunur.

Bu istiqamətdə aparılan işlər və keçirilən tədbirlər ümumilikdə ordunun nüfuzunun artmasına xidmət edən amillərdəndir. Şəxsi heyət bilir ki, Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# “Konflikt jurnalistikası məktəbi”nin təlimləri davam edir

*Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyələşdirdiyi və Müdafiə Nazirliyinin tərəfdaşlığı ilə "Milli təhlükəsizliyə xələl gətirən informasiyaların və dövlət sirri təşkil edən hərbi məlumatların qorunmasına dair təşəbbüslər" istiqaməti üzrə "Dinc Dünya" Araşdırma Mərkəzinin icra etdiyi "Konflikt jurnalistikası məktəbi"nin ikinci mərhələsinə start verildi. Heyət əvvəlcədən təsdiq edilmiş on günlük təlim-tədris planına əsasən, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin qarşısından düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsinə yola düşdü. Layihə rəhbəri Əlisəfa Mehdiyev bildirdi ki, auditoriya təlimlərindən sonra çöl təlimlərinə start verilir. "Artıq 5-ci ildir ki, Müdafiə Nazirliyinin bazasında bu təlimləri keçiririk. Builki, təlimlərdə yenilik ondan ibarətdir ki, hər bir məşğələdən sonra təlimalanlar normativlərdən imtahan verəcək, müsabiqələrdən keçəcəklər. Sonda normativ göstəricilərə əsasən, fərqlənənlərə diplomlar təqdim olunacaq. Çöl təlimlərindən sonra Müdafiə Nazirliyinin müxtəlif qoşun növlərinə məxsus hərbi bölmələrə ekskursiyalar təşkil olunacaq və bununla da təlimalanlar ordumuzla kompleks şəkildə tanış olacaqlar.*



"N" hərbi hissədə təlimalanları qarşılayan zabit Nihat Abdullayev onları hərbi hissənin ərazisi ilə tanış etdi, təlim müddəti ərzində bütün təhlükəsizlik qaydalarını çatdırdı və təlimalanların təyin olunmuş yerdə yerləşdirmə prosesi həyata keçirildi.

Proqrama əsasən, günün ikinci yarısında hərbi hissənin ideoloji sinfində növbəti auditoriya təlimi oldu. Təlimalanlar qarşısında çıxış edən "Konflikt jurnalistikası məktəbi" lahiyəsi rəhbərinin köməkçisi Teymur Zahidoğlu jurnalistlərin hərbi mühitə adaptasiya olma, fərdi situasiyalarda davranış qaydalarından danışdı. "Hərbi sahədən material hazırlamağa və ya aktiv döyüşlər gedən əraziyə ezam olunan jurnalistlərin, redaksiya tərəfindən əvvəlcə xarakterik xüsusiyyətləri, fərdi keyfiyyətləri nəzərə alınmalıdır. Jurnalist gedəcəyi hərbi hissə haqqında, oranın komandanlığı haqqında məlumatlı olmalıdır. Bununla yanaşı, hərbi nizamnamələrdən, hərbi rütbələrdən də ilkin anlayışı olmalıdır. Hadisə yerində işləyənlərə mane olmamalı, onlara təsir etməməli, qadağan olunmuş hərbi sirrin yayılmamasına ciddi riayət etməlidir. Qaynar nöqtəyə getməzdən əvvəl həmin ərazidə nələrlə qarşılaşacağını, onu hansı situasiyaların, çətinliklərin, risklərin gözlədiyini düşünməli, özünü psixoloji cəhətən də hazırlamalıdır. O, bilməlidir ki, döyüş şəraitində intensiv atəş zamanı özünə necə təhlükəsiz mövqeni seçmək, atəş açılan texnikalardan, silahlardan hansı məsafədə dayanmaq lazımdı. Bu vacib şərtləri bilən müxbir asanlıqla redaksiyasının tapşırığını yerinə yetirəcək, dəqiq və dolğun məlumatları əldə edəcək. Bu cəhətdən də "Konflikt jurnalistikası məktəbi"nin çöl-meşə təlimləri sizin



hazırlıqlı, hərb sahəsində bacarıqlı jurnalistlər kimi formalaşmağınızda mühüm rol oynayacaq. Burada qazandığınız nəzəri və təcrübi biliklər yaradıcı fəaliyyətinizə müsbət təsir edəcək.”

Təlimalanlarla görüşən polkovnik Babək Səmidli dövlət və hərbi sirrin qorunması və ictimailəşdirilməsi mövzusunda danışdı. Zabit bildirdi ki, dövlətin hərbi, xarici-siyasi, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı olan, dövlət tərəfindən mühafizə edilən və yayılması dövlətimizin təhlükəsizliyinə ziyan vuran faktların sosial şəbəkələrdə və internet saytlarında yayılması yolverilməzdir və qanunla qadağandır. "Artıq hamıya məlumdur ki, XXI əsr informasiya müharibəsi dövrüdür. Bu müharibənin əsgərləri də məhz siz jurnalistlərsiniz. Söz savaşında qalib gəlmək sizdən peşəkar hazırlıq tələb edir. Hərbi sahədən hər hansı məxfiçilik təşkil edən məlumatın yayılması düşmənə şərait yaradır ki, informasiyanın köməyi ilə bu məlumatları əldə etsin. Hərbi sahədən material hazırlayarkən hərbi texnikaların hərəkət istiqaməti, dislokasiya nöqtəsi, şəxsi heyətin və silah-sursatın sayı, hərbi təyinatlı yeni növ maddələrin xüsusiyyətləri və texnologiyaları haqqında informasiyaların qorunmasına xüsusi diqqət yetirin. Siz redaksiyanızın tapşığını yerinə yetirərkən, dövlət sirrinin mühafizəsi işini də ön planda tutmalısınız. Həmçinin hər hansı fakt əldə etdikdə onu ictimailəşdirməzdən əvvəl yuxarı komandanlıq ilə razılaşdırmalısınız. Unutmayaq ki, dövlətimizin təhlükəsizliyinin təmin olunmasında hər birimizin rolu vacibdir. Dövlət sirrini qorumaqla yanaşı, dövlət sirri təşkil edən məlumatları yayan, eləcə də dövlət sirri təşkil edən məlumatları xarici dövlətlərə, xarici təşkilatlara və ya onların nümayəndələrinə verən və yaxud vermək məqsədilə oğurlayan, toplayan və ya saxlayan şəxslər barədə müvafiq orqanlara məlumat vermək hər bir vətəndaşın müqəddəs borcudur".

Təlimin növbəti günündə hərbi hissənin kollektivi ilə görüş keçirildi. Hərbi maşınlarla və texnikalarla tanışlıq oldu. Hərbi hissənin zabit, gizirləri təlimalanlara texnikalar və silahlar haqqında geniş məlumat verdilər. Sonra iştirakçılara döyüş imitasiyası şəraitində düşmən texnikasının pusquya salınması və canlı qüvvəsinin əsir götürülməsi zamanı peşə fəaliyyətinin yerinə yetirilməsi fəaliyyəti öyrədildi. Dərs prosesində təlimalanlar zirehli texnikanın altında uzanma, üzərində oturma, içindən və üstündən çəkiliş etmə, döyüş vaxtı texnikadan yararlanmanın qaydaları, eləcə də döyüş şəraitində təhlükəsiz şəraitdə informasiya əldə edilməsini məşq etdilər. Bu zaman jurnalistlərə yaranan si-



tuasiyada hansı mövqedə dayanması və düzgün mövqedən müşahidə aparması öyrədildi. Daha sonra hərbi hissənin trenajor zalında simulyasiya qurğuları ilə tanışlıq oldu.

Təlimin növbəti günlərində isə meşə-çöl təlimi baş tutacaq. Hərbi hissənin atış poliqonunda keçiriləcək praktiki təlimdə döyüş şəraitində məlumatın təhlükəsiz şəkildə əldə edilərək redaksiyaya göndərilməsi, döyüş meydanında davranış, silah və texnikalarla hansı məsafədə dayanmaq lazım olduğu və digər vacib faktlar öyrədiləcək.

Gündəlik təlim planına əsasən, hər günün sonunda yekun iclas keçirilir və layihə iştirakçıları dəyirmi masa ətrafında mənimsənilən mövzulardan, keçirilən dərslərdən diskussiya aparır, təlimalanların fəaliyyəti layihə rəhbərləri tərəfindən qiymətləndirilir.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# “Hərbi xidmət əvəzsiz məktəbdir”

"N" hərbi hissəsində ezamiyyətdəydim. Səngərdə əsgərlərlə səmimi söhbətləşmişdik. - Vətəndən, müharibədən, şəhidlikdən, torpaqlarımızın işğaldan azad ediləcəyindən, döyüş əzmindən, qələbə ruhundan danışmışdıq. Əsgərlərdən eşitdiklərimiz ürəyimizi dağa döndərmişdi. "Sənin üçün hər birimiz Mübarizik, Ana Vətən!", - kəlmələrini Azərbaycan əsgərlərinin hamısının hərbi xidmət amalı bilmişdik. Zabit İsaq Orucov söz arası demişdi ki, bütün hərbi hissələrdə bütün əsgərlər belə xidmət edirlər. O da qürurlanmışdı, biz də.

- Əsgərlərimizin nümunəvi xidmətiylə dünyada ən güclü ordulardan biri olan Azərbaycan Ordusunun hansı səviyyədə mənəvi-psixoloji hazırlığa malik olduğunu təsdiqləyir. Əsgər Bəhlul Hüseynov belə əsgərlərdəndir...

Bəhlul Hüseynov da tay-tuşları kimi məktəbdə müəllimlərinin, evdə atasının söhbətlərindən dərk etməyə başlamışdı müharibənin nə olduğunu. Hərdən suallar da verirdi: müharibə niyə başladı, müharibə nə vaxt qurtaracaq, şəhidlik nədi, əsgərlərimiz nə vaxt azad edəcək torpaqlarımızı,... suallarına aldığı cavablar onun vətənpərvərliyini formalaşdırırmış...

- Bir dəfə atam demişdi ki, əsgər sözünün mənası vətənpərvər deməkdir. Əsgər sözü




yaddaşıma belə yazıldı. Hərbi xidmətə çağırılanda da, hərbi xidmətə başlayanda da, Hərbi and içəndə də atamdan eşitdiklərimi xatırladım. Bu haqda əsgər yoldaşlarıma da danışdım. Hamısının bu fikirlə razılaşması mənə çox xoş gəldi. Biz hərbi xidmətə vətənpərvərlər kimi gəlmişdik, yüksək vətənpərvərliklə xidmət edirik, - əsgər Bəhlul Hüseynovun dedikləri məni də, əsgərləri də, zabit İsaq Orucovu da duyğulandırdı: Azərbaycan əsgəri üçün müqəddəsliyin dərki vətənpərvərliklə - Vətən, dövlət, dövlətçilik kəlmələrinin dərkiylə başlayır.

Nümunəvi xidmətin əsası əsgərin vəzifə borclarını dərk etməsidir. Dərk edilənlərə hansı səviyyədə əməl olunmasıdır. Yaxşı əsgər vəzifə borclarının xatırladılmasını gözləmir, onları vaxtında, məsuliyyətlə yerinə yetirir. "Nəyi qorumalı olduğunu bilən əsgər necə qorumağı hərbi xidmətdə öyrənir və bu öyrənməyə maraq, sevgi onun hərbi xidmətinin səviyyəsini müəyyənləşdirir. Bir zabit kimi belə əsgərlərlə qürurlanıram. Hamısı Böyük Qələbə amalıyla xidmət edir. Əsgər Bəhlul Hüseynov da onların sırasındadır!, - zabitin əsgərlərə bu ehtiramını ümumən zabitlərimizin əsgərlərimizə münasibəti bilirəm.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

## Ana

Ana dedim, ürəyimə yanar odlar saçıldı,
Ana dedim, bir ürpəriş hasil oldu canımda,
Ana dedim, qarşımda bir gözəl səhnə açıldı,
Ana dedim, fəqət onu görməz oldum yanımda.

Ana, ana!... Bu kəlmənin vurğunuyam əzəldən,
Onu gözəl anlatamaz düşündüyüm satırlar.
Ana olmaz bizə hər bir "yavrum" deyən gözəldən,
Çünki onun xilqətində ayrıca bir füsun var.

Başqa aləm yaşamadım böylə gözəl biçimdə,
Onu kimsə gözəlliyin cilvəsində yaratmış;
Ana, ana... çiçəkli bir fidandır ki, içimdə
Ta əzəldən kök salaraq, ürəyimdə boy atmış.

O fidanı bəzi faqıt istiyorum çəkərək,
Qoparayım ürəyimdən, fəqət onda varlığım
Sızıldarkən, sanki bir səs qopub incə və titrək
Bir lisanla söylüyor ki: - Mənə dəymə, yazığım!

Çünki səni mən bəslədim, mən böyütdüm, oxşadım,
Söylədiyin sözlər ki var beşiyinin üstündə
Oxuduğum türkülərin kölgəsidir, övladım!
Mənə məxsus vərəqlər var hər kitabda, hər dində.

Nə doğru söz yazıqlar ki, görməmişəm onu mən,
Diyorlar ki, Müşfiq, xəstə bir tifildin, ananı
Baban kimi soyuq əllər qucağına çəkərkən,
Yalnız acı fəğanların titrədirdi hər yanı.

İndi mənə hər kəs: - Anan, baban varmı?- söyləsə,
Diyorum ki, - qapılmadan bir xülyaya, bir hissə -
Olan olmuş, keçən keçmiş, indi məni yaşadan
Bir müqəddəs, bir səmimi əməlim var, tapdığım.

İnandığım bir qiblə var, o da hər gün, hər zaman
Yorulmayan qollarımla, düşünərək yapdığım
Bir aləmdir, bir aləm ki, səmaları qıpqızıl,
Yüksəkləri, alçaqları, fəzaları qıpqızıl!

## Eşqim

Anasız, babasız Ofelya kimi
Saçları pərişan bir qızdır eşqim.
Qəlbimin buludlu səmalarında
Titrəyən bir qərib ulduzdur eşqim!

Olmadan aşikar doğduğu yerdən,
Böyük tanrı kimi düşmüş nəzərdən,
Çöhrəsi gülməyən xarabalardan
Daha qəmli, daha issızdır eşqim!

Həyata baxmamış gülümsər kimi,
Hər bir hadisədən bixəbər kimi,
Yad əllərdə qalan yetimlər kimi
Başı bəlalıdır, yalnızdır eşqim!

## Yaşa könül

Ah, bu uzun sevda yolu
Vurulurmu başa, könül!
Nişan aldım, kaman atdım,
Dəydi oxum daşa, könül!

Bir od düşdü buluduna,
Yandı könül eşq oduna,
Qaldın hicran umuduna,
Ey qırılan şişə könül!

Tərlansan, göydən enməzsən,
Bu torpaqda sevinməzsən,
Mən dönərəm, sən dönməzsən,
Yaşa, könül, yaşa, könül!

## Könlüm şeir istəyir

# “Yenə o bağ olaydı...”

*Mikayıl Müşfiqin şeiridi.*

*30-cu illərdə yazılan bu şeir bu gün də maraqla, sevgilərlə, duyğusallıqla oxunur. Bu şeirin mahiyyətində təbiətsevərlik, vətənsevərlik təsirindədi. Şairin digər şeirləri də bu səmimilikdə, bu duyğusallıqda yazıldığından həmişə ehtiramla oxunur, dinlənilir.*

**"Azərbaycan Ordusu"**

## Yenə o bağ olaydı

Yenə o bağ olaydı, yenə yığışaraq siz
O bağa köçəydiniz.
Biz də muradımızca fələkdən kam alaydıq,
Sizə qonşu olaydıq.
Yenə o bağ olaydı, səni tez-tez görəydim,
Qələmə söz verəydim.
Hər gün bir yeni nəğmə, hər gün bir yeni ilham,
Yazaydım səhər axşam.
Arzuya bax sevgilim, tellərindən incəmi?
Söylə, ürəyincəmi?
Yenə o bağ olaydı, yenə sizə gələydik,
Danışaydıq, güləydik.
Ürkək baxışlarınla ruhumu dindirəydin,
Məni sevindirəydin.
Gizli söhbət açaydıq, ruhun ehtiyacından.
Qardaşından, bacından
Çəkinərək çox zaman söhbəti dəyişəydin,
Mənimlə əyişəydin.
Yenə bir vuraydı, qəlbimiz gizli-gizli,
Sən, ey əsmər bənizli.
Bu yaz bir başqa yazdır, bu yaz daha da xoşdur,
Vay o qəlbə ki, boşdur!
Hər üfüqdə bir həvəs, hər bucaqda bir umud,
İnsanlar daha məsud.
Duyğular daha incə, fikirlər daha dərin,
Ürəklər daha sərin.
İnsanların vüqarı, tələbi daha yüksək,
Yolumuzdan daş, kəsək,
Təmizlənmiş bir az da. Əllərin keyfi sazdır,
Bu yaz, bir başqa yazdır!
Yenə o bağ olaydı, yenə o qumlu sahil,
Sular ötəydi dil-dil.
Saçın kimi qıvrılan dalğalara dalaydım,
Dalıb ilham alaydım.
Əndamını həvəslə qucaqlarkən dalğalar,
Qəlbimdə qasırğalar,
Fırtınalar coşaydı, qısqanclıqlar doğaydı,
Məni hirsim boğaydı.
Cumub alaydım səni dalğaların əlindən,
Yapışaydım belindən.
Xəyalımız üzəydi sevda dənizlərində,
Ləpələr üzərində.
İlhamımın yelkəni, zərrin saçın olaydı,
Sular xırçın olaydı.
Bu nə gözəl şeirdir, bu nə gözəl mənzərə,
Gəlin baxın Xəzərə.
Çıxalım Buzovnada kiçik qayalıqlara,
Seyrə dalım bir ara...
Gecələr sayrışarkən, ulduzlar lalə kimi,
İşıqlar jalə kimi.
Çilənib dağılarkən ətrafa damla-damla,
Ən yaxın bir adamla.
Nə gözəldir dinləmək suların nəğməsini,
Təbiətin səsini!
Nə gözəldir dolaşmaq, isti yay fəsilləri,
Bu sərin sahilləri!
Nə gözəldir səhərlər bizim böyük ruhumuz,
Aşıb-daşan duyğumuz.
Şəklindəki sulara, baxaraq ləzzət almaq,
Bu mavi şerə dalmaq.
Dalğalar kimi qalxmaq, dalğalar kimi enmək,
Bəzən hürküb çəkinmək.
Hər dalğa bir kişnəyən bəyaz yallı at kimi,
Bizim bu həyat kimi!
Yenə o bağ olaydı sevdalar ölkəsində,
O söyüd kölgəsində.
İnci qumlar üstündə yenə verib baş-başa,
Yayı vuraydıq başa.
Günlərimiz keçəydi qızğın fərəhlər kimi,
Dolu qədəhlər kimi.
Yarpaqlar arasından uzadaraq əlini,
Oxşayaraq telini.
Gecələr darayaydı saçlarını ay gözəl!
Sən gözəlsən, ay gözəl?
Əllərində əllərim, gözlərində gözlərim...
Asılaydı sözlərim
Könlünün qulağından bir qızıl tana kimi,
Günəş doğana kimi.
Bu yaz dostlarım bir az bəxtəvər olacaqlar,
Can-ciyər olacaqlar.
Bir az da uzaqlara açacaqlar yelkəni,
Ruh yeni, həyat yeni...
Çıxacaqlar göyləri aşaraq dönə-dönə,
Buludların fövqünə.
Uçacaqlar sabaha, uçacaqlar yarına,
Efir boşluqlarına.
Vaxtilə bir kölgə tək hür yaşamaq istəyən,
Bu insan oğlu bilsən.
Azadlıq ölkəsində daha şad olacaqdır,
Dünya dad alacaqdır.
Yenə o bağ olaydı, yenə yığışaraq siz,
O bağa köçəydiniz.
Biz də muradımızca fələkdən kam alaydıq,
Sizə qonşu olaydıq.
Yenə o bağ olaydı, səni tez-tez görəydim.
Qələmə söz verəydim.
Hər gün bir yeni nəğmə, hər gün bir yeni ilham,
Yazaydım səhər-axşam.
Arzuya bax, sevgilim, tellərindən incəmi?
Söylə, ürəyincəmi?

## Maral

Dolaşma sıldırım sal qayalıqda,
Daşlar ayağını əzər, maralım!
Gəl səni bəsləyim gözümün üstdə,
Etmə aşiqindən həzər, maralım!

Diksinə-diksinə qıya baxanda,
Səksənmə könlümü oda yaxanda,
Çeşmeyi-çeşmindən nurlar axanda,
Qaynar bulaqlara bənzər, maralım!

Səyyarə tutmuşdur hüsnündən soraq,
Bədnəzər gözündən olasan iraq!
Köksümdə gəl gizlən, getmə çox uzaq,
Hicran dağlarını gəzər, maralım!

Baku 2019
EUROPEAN YOUTH OLYMPIC FESTIVAL

İyulun 24-də Bakıda Heydər Əliyev adına İdman Sarayında XV Avropa Gənclər Olimpiya Festivalının cüdo yarışları start götürüb. Azərbaycan idmançıları yarışların birinci günündə 1 qızıl və 2 bürünc medal qazanıblar.

Festivalda 40 ölkədən 297 cüdoçu iştirak edir. Azərbaycan bu nüfuzlu turnirdə 12 cüdoçu (8 oğlan, 4 qız) ilə təmsil olunur.

Cüdo yarışlarının birinci günündə qadınlar 40, 44, 48, oğlanlar isə 50, 55, 60 kiloqram çəki dərəcələrində çıxış ediblər. Yarışların birinci günündə Azərbaycanın 5 idmançısı mübarizəyə qoşulub.

Qızıl medalı ölkəmizin aktivinə Turan Bayramov (60 kq) yazdırıb. İdmançımız həlledici görüşdə rusiyalı Rizvan Maqomedova ipponla qalib gələrək çempion olub. Şükran Zamanlı (55 kq) üçüncü yer uğrunda görüşdə ukraynalı Vladislav Kolobovu ipponla məğlub edərək bürünc medala sahib olub. XV Avropa Gənclər Olimpiya Festivalının cüdo yarışlarında digər bürünc medalı komandamıza qadın idmançımız Gülşən Bəşirova (44 kq) qazandırıb. Təmsilçimiz üçüncü yer uğrunda görüşdə hollandiyalı Yoslin Supusepi ipponla məğlub edib.

İyulun 25-də qızlar 52, 57 və 63, oğlanlar 66 və 73, iyulun 26-da qızlar 70 və 70 kiloqramdan yuxarı, oğlanlar 81, 90 və 90 kiloqramdan yuxarı çəki dərəcələrində mübarizə aparıblar. İyulun 27-də isə qarışıq komanda yarışları keçiriləcək.

* * *

Bakıda keçirilən XV Avropa Gənclər Yay Olimpiya Festivalının dördüncü günü başa çatıb. Gün ərzində 17 dəst medal sahibini tapıb. Azərbaycan yığması günü 3 medalla başa vurub. İdmançılarımız 1 qızıl və 2 bürünc əldə ediblər. Hər üç mükafat cüdoçuların hesabındadır. Bunadək yığmamızın heyətində yalnız güləşçilər fərqlənmişdilər. Yarışın dörd günündən sonra millimizin medal sayı 19-a çatıb. Bunlardan 9-u qızıl, 5-i gümüş, 5-i bürüncdür. İlk üç günü zirvədə başa vuran Azərbaycan 1-ci pilləni əldən verib. Rusiya yığması qızıl medal sayını 13-ə, ümumi mükafatlarını isə 32-yə çatdıraraq 1-ci pilləyə yüksəlib. 3-cü yeri isə Türkiyə ələ keçirib.

Ümumilikdə, 4 gün ərzində 57 dəst medal sahibini tapıb. Bu mükafatları 32 ölkə təmsilçisi qazanıb. Çempionların şərəfinə 17 ölkənin himni səsləndirilib.

**AZƏRTAC-ın materialları əsasında**

Baş leytenant İbrahimov Vüsal Cümşüd oğluna verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Orxan HÜSEYNLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 535
Nüsxə 3950